kaspi-2017.-2 mart.-S.11.

# Naxçıvan Teatrı haqqında daha bir kitab nəşr olunub

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımovun "Naxçıvan Teatrında tərcümə əsərlərinin tamaşaları (1883 - 2013)" monoqrafiyası "Xəzər Universiteti" nəşriyyatında işıq üzü görüb.**




Monoqrafiyada Naxçıvan Dövlət Musiqili Dram Teatrının 130 illik tarixi ərzində burada tamaşaya qoyulmuş tərcümə əsərlərinin səhnə təcəssümü ilk dəfə olaraq sistemləşdirilmiş şəkildə tədqiq olunmuş, eləcə də bir sıra tamaşaların timsalında müfəssəl təhlili verilmişdir.

Kitabda, həmçinin Naxçıvan Teatrının dəqiq yaranma tarixi bir daha tədqiqata cəlb edilmiş və bəzi faktlar yeni arqumentlərlə əsaslandırılmış, teatrın təşəkkül və formalaşma dövrü, onun müasir günümüzədək yaradıcılıq yolunda, o cümlədən inkişafının ayrı-ayrı mərhələlərində baş verən ən əlamətdar və tarixi hadisələr işıqlandırılmışdır.

Kitabın elmi redaktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov, rəyçilər Azərbaycan Respublikasının Xalq artisti, professor Amaliya Pənahova və sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Məleykə Məmmədovadır.

Elmi cəhəti ilə yanaşı, zəngin faktoqrafik materiala malik monoqrafiya teatr sahəsində çalışanlar, tədqiqatçılar, tələbələr və ümumiyyətlə teatrsevərlər üçün nəzərdə tutulub.